**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin çıxışı**

*Milli Məclis, 24.05.24*

**Çox hörmətli sədarət, Dəyərli Sahibə xanım,**
**Hörmətli millət vəkilləri və media nümayəndələri!**

Hamınızı salamlayır və diqqətinizə çatdırmaq istəyirəm ki, gender bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikası qanununun 20 ci maddəsinə uyğun olaraq Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin 2023 -cü il üzrə Məlumatı ötən il respublikamızda bu sahədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri üzrə beynəlxalq və milli öhdəliklərin yerinə yetirilməsinə dair görülmüş işləri özündə əks etdirir.

Ötən il ölkəmizdə bir sıra önəmli tədbirlərlə yadda qalmışdır. Gender bərabərliyinin təmin olunması, qadınların kişilərlə bərabər səlahiyyətləndirilməsinə dair mövzularda həm yerli, həm də beynəlxalq səviyyəli tədbirlər keçirilmişdir.

- **Qoşulmama Hərəkatının** Əlaqələndirmə Bürosunun iyul ayında nazirlər səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elan etdiyi təşəbbüs çərçivəsində 20-21 noyabr 2023-cü il tarixində Bakı şəhərində 40-a yaxın ölkənin və bir sıra beynəlxalq təşkilatın yüksək səviyyəli qonaqlarının iştirakı ilə Qoşulmama Hərəkatının “Qadın Hüquqlarının İnkişafı və Qadınların Səlahiyyətləndirilməsi” üzrə Konfransı baş tutmuşdur.

- <u>Və Məişət zorakılığının qarşısının alınması üzrə 2020-2023 cü illər üzrə Milli Fəaliyyət planının yekunlarına dair **beynəlxalq Konfrans** keçirilmişdir.</u>

- 2023-cü ildə keçirilən vacib konfrans və tədbirlərin bir çoxu Ümumilli liderin 100 illiyinə həsr edilmişdir. Bunlardan biri də 600 dan çox yerli və xarici qonağın iştirakı ilə keçirilən **Azərbaycan Qadınlarının VI Qurultayı** olmuşdur. Bu möhtəşəm mərasim həm də Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə 1998-ci ildə keçirilən ilk qadın qurultayının 25-ci ildönümünə həsr olunmuşdur.

*Qeyd edilən bu tədbirlərdə Milli Məclisin rəhbərliyi, çoxsaylı millət vəkilləri, dövlət və özəl qurumların, media və vətəndaş cəmiyyətinin nümayəndələri fəal iştirak etmiş, öz dəyərli töhfələrini vermişlər.* ***Hər birinizə təşəkkür edirik.***

***Hörmətli millət vəkilləri!***

Təqdim etdiyimiz Məlumat Qanunun müvafiq maddələrinə uyğun olaraq **3 bölmədən** ibarət tərtib edilmişdir. Əvvəlki illərlə müqayisədə məlumat daha geniş və əhatəli şəkildə tərtib olunmuşdur.

Dövlət qurumlarının qeyd olunan sahə ilə bağlı fəaliyyətinin genişlənməsi, eyni zamanda hesabatlılıq səviyyəsinin də artması müşahidə olunur.

İlk dəfə olaraq Məlumata Mediasiya Şurasının hesabatı, Gender məsələləri üzrə məsul şəxslərin siyahısı, Sosial xidmət müəssisələrinin və yardım mərkəzlərinin xidmətlərindən yararlanan şəxslər barədə hesabat, həmçinin Naxçıvan Muxtar Respublikasının məlumatları da daxil edilmişdir.

Məlumat 150 səhifədən ibarət olmaqla, 62 dövlət orqanı və 77 yerli icra hakimiyyəti və Naxçıvan Muxtar Respublikasından daxil olan informasiyaları əhatə etmişdir. Qeyd etmək istəyirəm ki, statistik göstəricilər Dövlət Statistika Komitəsinin və digər dövlət orqanlarının məlumatlarına əsaslanmışdır.

Dövlət Komitəsi tərəfindən aparılan **altı araşdırma** barədə məlumatları kitabçada göstərilən QR kodu vasitəsilə və Komitənin internet səhifəsindən tam şəkildə əldə etmək mümkündür.

**Çox hörmətli Sahibə xanım, Dəyərli millət vəkilləri!**

Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və dövlətin vəzifələrindən bəhs edən I bölmədə normativ hüquqi bazanın təkmilləşdirilməsi, gender əsaslı ayrı-seçkilik halları ilə bağlı mövcud vəziyyət, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında qadın və kişilərin təmsilçiliyi barədə məlumatlar *öz əksini tapmışdır.*

**Qanunvericiliyin təkmilləşdirilməsi** istiqamətində 2023-cü ildə “Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu və “Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı” qəbul edilmişdir. Məişət zorakılığının qarşısının alınması istiqamətində normativ hüquqi akt layihələri hazırlanmışdır.

**İnstitusional mexanizmlərin gücləndirilməsi** sahəsində ötən il - Uşaq və Ailələrə Dəstək, Qadın Resurs Mərkəzləri, Gender məsələləri üzrə məsul şəxslərin və bələdiyyələrdə yaradılmış Gender komissiyalarının geniş fəaliyyəti olmuş, eyni zamanda gender bərabərliyi mədəniyyətinin təbliği sahəsində əlaqədar dövlət orqanları, QHT və media qurumları tərəfindən çoxsaylı layihələr icra edilmişdir.

Həmçinin 860 Dəstək Xəttinə (*302)* və Qadın Dəstək Xətt Xidmətinə (*4079)* olan müraciətlərin sayı artmışdır. Bu da əhalinin məlumatlılıq səviyyəsinin artmasını göstərir.

**Hörmətli millət vəkilləri!**

Son illərdə ilk dəfə olaraq ötən il gender əsaslı ayrı-seçkiliyin ən geniş yayılmış forması olan **məişət zorakılığı zəmnindəki** cinayətlərdə azalma müşahidə olunmuşdur. Bu isə ilk növbədə müdafiə mexanizmlərinin fəaliyyətinin koordinasiya edilməsi və güclənməsindən xəbər verir.

(180-i qısamüddətli, 16-sı uzunmüddətli olmaqla, ümumilikdə 196 mühafizə orderi (2022- 158 olub) icraatda olmuşdur).

Azərbaycan üzrə 2023-cü ildə **18 yaşınadək analar tərəfindən doğulan uşaqların sayı** keçən illə müqayisədə 15% azalmışdır. (*2022-2011 nəfər, 2023-1742 nəfər olmuşdur.* )

Nikah yaşının 1 il azaldılması ilə bağlı yerli icra hakimiyyətləri tərəfindən 241 yetkinlik yaşına çatmayan şəxsə icazə verilmişdir. (2022-276 nəfər)

Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2023-cü il üzrə doğumu qeydə alınmış **cinslər arasındakı fərq** 7008 nəfərdir. Cins nisbəti hər 100 qıza 113 oğlan təşkil edir.

2022-ci illə müqayisədə 2023-cü ildə nikahların sayında azalma, boşanmaların sayında artma müşahidə olunur.

Statistika göstərir ki, ***abortların sayı*** *2022-ci illə müqayisədə 27% artmışdır.*

**Dövlətin idarə olunması və qərarların qəbulu səviyyəsində** əvvəlki illərə nisbətən 2023-cü ildə qadınların sayında müsbət dinamika müşayət olunmuşdur. Ekranda müvafiq sahələr üzrə artım göstərilmişdir.

**Məlumatın II bölməsi** Gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatından bəhs edir. (Maddə 7-16)

Bu bölmədə Əmək, Təhsil, İqtisadi sahədə, həmçinin Qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsi ilə bağlı vəziyyət öz əksini tapmışdır.

**2023-cü ildə qadınların orta aylıq əməkhaqqı** 739.3 manat, kişilər arasında bu göstərici 1066.9 manat təşkil etmişdir ***(ilkin məlumatlara əsasən).***

Məlumatın bu bölməsində 2023-cü ildə işsiz şəxs kimi qeydiyyata alınmış, işlə təmin olunmuş, özünüməşğulluq proqramına cəlb olunmuş şəxslərin gender bölgüsü göstərilmişdir.

Aparılan təhlil və hesablamalar əmək bazarında qadınların iştirakı və töhfəsinin artımından xəbər verir.

Ölkə üzrə Əmək pensiyaçıları arasında qadınların payı 57%, kişilərin payı isə 43% dir. Ona görə ki, yaşa görə 16%-lə və ailə başçısını itirməyə görə 60%-lə əmək pensiyaçılarının arasında qadınlar üstünlük təşkil edir.

**Hörmətli millət vəkilləri!**

Azərbaycanın ümumtəhsil məktəblərində təhsil alan şagirdlər arasında oğlanların sayı qızlara nisbətən çoxluq təşkil edir.

2023-cü ildə cins bölgüsü arasındakı fərq bir azda artaraq 6,8%-olmuşdur.

Növbəti slayd orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrin cins bölgüsünü əks etdirir (kişilər (71%) peşəyönümlü təhsilə, qadınlar (62,6%) orta ixtisas təhsilinə üstünlük verirlər). Bu göstəricilər həm özəl, həm də dövlət tabeliyində olan təhsil müəssisələrinə aiddir**.**

Digər cədvəldə isə təhsilin **bakalavr (qadınlar 52,6%) və magistr dərəcəsində (**kişilər 51,6%) təhsilalanların cins nisbəti əksini tapır.

**Hörmətli millət vəkilləri!**

**Qanunun 15-ci maddəsinin** nəzərdə tutduğu kişi və qadınların mülkiyyət hüququnun həyata keçirilməsinə və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün bərabər imkanların yaradılmasına dair vəziyyətdə canlanma nəzərə çarpır.

Müxtəlif fəaliyyət növləri üzrə **fərdi sahibkarların** (23%-i qadınlar, 77%-i isə kişilər)
Elektron Kənd Təsərüfatı İnformasiya Sistemində qeydiyyatdan keçmiş subyektlərin isə (74%-i kişilərin payına düşür).

Gender nisbətinin bərabərliyə yaxınlaşması üçün əlaqədar dövlət orqanlarının həyata keçirdiyi məqsədyönlü fəaliyyət öz bəhrəsini verməkdədir.

Bu sahədə həyata keçirilən layihələr və onların nəticələri haqda müvafiq məlumatlar kitabçada müfəssəl əksini tapmışdır.

2023-cü ildə dövlət əmlakının özəlləşdirilməsində hər iki cinsin nümayəndələrinin sayında azalma, icarəyə götürülməsində isə artım müşahidə olunur.

Dövlət Komitəsinin Mərkəzi bank vasitəsilə 25 banka göndərilmiş sorğusuna verilən cavabların təhlili bu sahədə nəzərə çarpan müsbət dəyişikliklərin olduğundan xəbər verir.

2023-cü ilin sonuna bank sektorunda çalışan işçilərin 62%-i kişilər, 38%-i qadınlar olmuşdur. Bank sektorunda rəhbər vəzifədə çalışanların 79%-ni kişilər təşkil etmişdir.

**Hörmətli millət vəkilləri!**

**Qanunun 16-cı maddəsi siyasi partiyaların, QHT-lərin və həmkarlar ittifaqlarının üzərinə qoyulan öhdəliklərdən bəhs edir.**

2023-cü ildə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış 26 **siyasi partiya** fəaliyyət göstərmişdir. Siyasi partiyaların üzvləri arasında da kişilər üstünlük təşkil etməkdədir. Yeni Azərbaycan Partiyasının üzvləri arasında gender bərabərliyi qorunmuşdur.

2024-cü illədək dövlət qeydiyyatına alınmış **QHT-lərin sayı** 3750-dir. Onlardan 12.6% təşkilatın sədri qadınlardır.

Ötən il “Ailə, Qadın, Uşaq və Gender Məsələləri” istiqaməti üzrə maliyyələşən layihələrin sayı 56 olmuşdur.

2023-cü il ərzində həmkarlar ittifaqları üzvlərinin sayında kişilər – 46,7 %, qadınlar isə - 53,3% olmuşdur.

Hİ-nin seçkili orqanlarında (İcraiyyə Komitəsi, Rəyasət Heyəti, həmkarlar ittifaqı komitəsi və s.) qadınların sayı – 51% təşkil edir.

**Hörmətli millət vəkilləri!**

2022-ci ildə Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əldə edilmiş nəticələr, qarşıya qoyulan vəzifələr və tövsiyələrdən bəhs edir.

Gender siyasətinin gücləndirilməsi, məişət zorakılığı, erkən nikah, selektiv abortların qarşısının alınması, təhsil və məşğulluq sahəsində gender bərabərliyinin gücləndirilməsi istiqamətində tövsiyələr öz əksini tapmışdır.